# İnformasiya cəmiyyəti və kitabxanalar

***Son zamanlar müasir kitabxana fəaliyyətində elmi cəhətdən böyük irəliləyişlər baş verir. Bu dəyişikliklər informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə, kitabxanadan istifadə edən oxucuların ehtiyaclarına uyğun olaraq informasiyaların operativ çatdırılması üçün yeni vasitələrin yaradılması ilə bağlıdır. Bu mənada, Xaçmaz Rayon Mərkəzi Kitabxanası da respublikada gedən dəyişikliklərlə, görülən işlərlə ayaqlaşmağa səy göstərir.***

Kitabxana Xaçmaz RİK-nin qərarına əsasən 1934-ci ildə yaradılmış, 1976-ci ildə mərkəzləşdirilmişdir. Kitabxana son illərdə rayon ərazisində fəaliyyət göstərən bütün təşkilatlarla işgüzar əlaqələr yaratmışdır. 2004-ci il məlumatlarına əsasən kitabxananın kitab fondu 40095 nüsxə olmuşdur. Son zamanlar müxtəlif mənbələrdən (müəlliflərdən; kitabxana kollektoru, Prezident aparatı, Azərbaycan Respublikası Milli Məclisi, Bakı təhsil mərkəzi, ABŞ səfirliyi, Exxon təşkilatı və s.) ana dilində latın qrafikalı və eləcə də ingilis dilində xeyli ədəbiyyat alınmışdır.

Kitabxana keçən ildən ABŞ səfirliyinin "Kitabxanaların İnkişafı Proqramı" layihəsinə qoşularaq, ictimai informasiya mərkəzi, daha dəqiq desək KİM kimi fəaliyyətini genişləndirməyə çalışır. Layihədə iştirak edən Xaçmaz Rayon Mərkəzi Kitabxanasının əməkdaşları ABŞ səfirliyinin təşkil etdiyi müvafiq kursları bitirmişlər. Həmin kursları müvəffəqiyyətlə başa vurub, aldığı biliklər zəminində yeni fəaliyyət istiqamətlərində öz işini qurmağı bacaran Xaçmaz Rayon Mərkəzi Kitabxanasının əməkdaşı Sevda İsmayılovanın son nəticə olaraq gəldiyi qənaətə diqqət yetirək: "Kitabxana işinin İnkişaf Proqramı üzrə Azərbaycanda görülən işlər vətəndaş cəmiyyətinin kitabxanalara cəlb olunmasında uğurlu addımlar olacaqdır".

Qeyd edək ki, ABŞ səfirliyi həmin proqram çərçivəsində adı çəkilən kitabxanaya 2 minə yaxın ədəbiyyat (ingilis dilində və latın qrafikasında çap olunmuş ana dilli nəşrlər) hədiyyə etmişdir. Həmin kitabxanada "informasiya gün"lərinin keçirilməsi artıq bir ənənə halını almış, yerli əhalinin kompüter texnologiyalarından istifadə etməklə müxtəlif məlumatlar və informasiya əldə etmək bacarığı, onların informasiya mədəniyyəti və fəallığı nəzərə çarpacaq dərəcədə artmışdır.

Kitabxanada müxtəlif dərnəklər də fəaliyyət göstərir. Dərnəklərin aparıcı mövzuları və təşkil olunan eskursiyalar auditoriyanın arzuladığı mövzular üzrə keçirilir.

Mərkəzi kitabxananın son illərdə təşkil etdiyi ən müvəffəqiyyətli tədbirlərdən biri "Bura Azərbaycandır" adlı dərnəkdir. Bu dərnəkdə Azərbaycan tarixi və rayonun mədəni abidələri öyrənilir. Misal olaraq, burada "Tarixin yaddaş borcu" adlı informasiya bülleteni hazırlanır. Həmin bülletendə İkinci Dünya müharibəsində iştirak etmiş 10 min və həlak olmuş 2800 xaçmazlının taleyindən söhbət açılır. Bülletendə verilmiş materiallar rus və ingilis dillərində həm çap, həm də elektron formada təqdim olunur. Qeyd etmək lazımdır ki, Respublikamızın heç bir kitabxanasında bu formada iş görülmür.

Kitabxanada müxtəlif oxucu qruplarına təmənnasız İnternet xidməti göstərilir, istifadəçilər müxtəlif məlumat bazalarına müraciət etməyin yollarını öyrənir, səriştəli kitabxanaçı-operatorların köməyi ilə onlar maraqlandıqları sahələr üzrə texniki bilik və vərdişlərini təkmilləşdirirlər.

Kitabxanada kompüter biliklərini öyrədən xüsusi kurslar təşkil olunur. İstifadəçilərin yaş həddi də müxtəlifdir. Burada yaşlı nəs-

